

*Vidadi Bəşirov,*
*ADU-nun dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

# Qəlbləri fəth edən şair

**Qəfil ölüm sıramızdan bir yarpağı da qopartdı. Dərin qəlb duyğusu ilə insan adının şərəf və ləyaqətini, əsrarəngiz təbiət ecazının min bir gözəlliyini poetik fikir ifadəsi ilə, doğma Azərbaycana sonsuz mehr və sevgisini təbii sözün intəhasız təsir gücü ilə uca zirvələrə həkk edən şair-pedaqoq, görkəmli alim-geoloq Oqtay Rzanın söz və əməl vəhdəti ilə parlaqlaşan poeziya kəhkaşanında təkcə "sönmüş ömür" məfhumu ilə heç vədə razılaşmaq, onunla keçmişdə danışmaq olmur.**

Bu vaxtsız ölüm xəbəri demək olar ki, onu şəxsən tanıyıb sevənlərlə yanaşı, sonsuz sayda oxucularını da mənən sarsıtdı, qəlblərə kədər notu gətirdi.

...Mən onun tələbəsi olaraq hər dəfə vədələşib görüşəndə özünəxas ifadə tərzi ilə " Vidadı Bəşirə alovlu salam! " kəlmələrini bu gün də xatırlayır, gürşad səsinin poetik tonu ilə yada salıb, sanki, özümə təskinlik verirəm.

Həyatda, yaşam tərzində qəribə hisslər keçirməyin özü də bəzən real hadisələrdən tez və anlaşıqlı agah olmağın təməlini qoyur.

**- Haşiyə:** " Avqustun 17-də əslən Neftçala rayonunun Qırmızıkənd elatında olan qohumum psixoloq Araz Ağazadənin qızı Yasəmənin Salyan rayonunun Quyçu kəndində "Ayaz" şadlıq evində keçiriləcək toy müsamirəsində iştirak edəcəyimi qabaqcadan bildiyim üçün "Ədalət" qəzetinin 15 avqust 2019-cu il tarixli, 134-cü nömrəsində Oqtay Rzanın imicini əks etdirən ənənəvi şeir güşəsində dərc olunmuş silsilə poetik nümunələri sırasında "Qırmızıkənd"ə həsr olunmuş şeirini də özümlə götürdüm. Nəzərdə tutdum ki, fürsətdir gedəcəyim toy şənliyində elə bu misraları da məntiqlə ifadə edib, Oqtay Rzanın vaxtı ilə bu kənddə keçən uşaqlıq və yeniyetməlik dövrünün parlaq anlarını yada salmaqla , bir daha onun vətənpərvərlik ehtişamına çıraq tutum.

Aldığım "Ədalət" in bir nüsxə olduğunu və onun da arxivimdə qalacağını nəzərə alıb, əlavə bir nüsxəni də əldə etdim.

Axşam vədəsində öz çıxışımda həmin şeirlərin "anonsunu" da verdim.

Hamı böyük diqqətlə bu şeirin istinad yerinin toy şənliyində səslənməsini hiss etdim ki, böyük şövqlə canlandırmağı səbirsizliklə gözləyirdilər...

Ancaq atalar yaxşı söyləmiş: "Sən saydığını say, gör fələk nə sayır" Toyun şirin məqamında xanımım Kəmalənin İranın Qum şəhərindən açılan görsənişli zəngini eşidim.

Toy sahibi ilə xudazifləşmək məcburiyyətində qaldım. Çünki, səhhətində müəyyən fəsadlar vardı. Narahat hisslərlə Bakıya qayıtdım.

Ertəsi gün isə məhz bu acı xəbərlə də yaşanmağa məcbur oldum. Özümdə inanılmaz dərəcədə çox gərgin "Şok effeki" yarandı.

Axı, o, mənim üçün təkcə müəllim - tələbə ünsiyyətini qoruyub saxlayan rəsmi daşıycı yox, həm də yaradıcılığı ilə fəxr etdiyim şəxsi nümunə etalonu idi.

Yadımdadır, 1972-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin böyük zalında gənc nəsil üçün həmişə örnək olan, insan və insanlığa əbədiyaşarlıq mifi bəxş edən, ölməz şairimiz, böyük ustad Məmməd Arazla coğrafiya fakültəsi tələbələri və professor - müəllim heyətinin görüşü keçirilirdi.

Şair haqqında dəstək göstərib söz deyənlər də cox idi. Lakin birdən tələbələrə də onun poeziyası ilə əlaqəli fikir bildirmək üçün söz veriləcəyini eşidəndə sevincimin həddi - hüdudu olmadı.

Mücərrəd baxışlarla yan sırada oturmuş müəllimi Oqtay Rzayevə tərəf yönəldim. İstəyimi elə məçhul baxışlarda hiss edib, başı ilə tribunanı göstərdi. Mən məğrur və cəsarətli şairin haqqında söz imkanı qazandığım üçün çox fərəhli duyğularla növbəti natiqin çıxışından sonra söz alıb xitabət kürüsünə doğru addımladım.



Çox yaxşı xatırlayıram. Gənclik şövqü ilə şana burmaqlarını ipək saçlarına çəkən şair farağat vəziyyət alıb, məni bütünlüklə müşahidə obyektinə gətirdi. Cəsarətim bir az da artdı. Şairin çöhrəsinə baxıb həm ona, həm də zaldakılara belə bir mühakiməli təəssürat nəql edəsi oldum:

"- Çox hörmətli sədarət və əziz şairlərimiz! Biz təhsil alanları ilk dəfə tələbə adı almağımız münasibətilə təbrik edən müəllimlər sırasında iki mühazirəçinin adını çəkmək istərdim.

Onlardan biri coğrafiya elimlər namizədi, dosent Osman Osmanov o biri isə geologiya - minerologiya elimləri namizədi, şair Oqtay Rzayevdir! Onların hər ikisi elə ilk məşğələdə bu fakültəni çox görkəmli məzunlarının adlarını qeyd etdilər. Onların sırasında isə şair Məmməd İbrahimovun da olduğunu deyəndə bizim fakültəyə olan maraq diapozonumuz bir az da genişləndi.

Zal mənim bu kiçik informasiyamı böyük rəğbətlə alqışladı. Davam edib , yüksək pafos və təmkinlə şairin müxtəlif şeirlərindən nümunələr də söylədim. Və nəhayət, böyük şəstlə tiribunadan zala düşəndə məni ilk təbrik edən də birinci sırada oturmuş bu münəvvər müəllimlərim - Osman Osmanov və Oqtay Rza oldular".

Oqtay müəllim sonradan biləndə ki, biz eloğluyuq. Bir torpağın övladıyıq. Məni yanına çağırdı. O, həm də fakültə üzrə partiya təşkilatının katibi idi.

**Dərslərimdə, təhsilimdə də qabağcıl olmağı, Azərbaycan övladı olaraq elə - obaya, Vətənə bağlı insan kimi formalaşmağı tövsiyə etdi. Oqtay müəllim sözün həqiqi mənasında həm də məşhur səyyah və coğrafiyaşunas idi. Onun ağır - müəllim tələbkarlığı auditoryada öz kəsərini göstərirdisə də, belə gəzinti və ekskursiyalarda insani keyfiyyətləri humanizmi, valideyinlik qayğısı biz tələbələrə həvəs və şövq verirdi. O belə bir şəxsiyyət idi. Bu gün onun parlaq müəllim erudisiyası, şair düşüncəsi sevimli tələbələri üçün aydın çıraq tutan, işıqlı yoldur. Bu yolun yolçusu isə əbədiyaşarlıq nümunəsi ilə neçə-neçə nəslin həyatına çıraq tutan poeziya çələngi hörən gəncin qəlblərə nur səpən Oqtay Rza adının qüdsiyyətidir. Allah ona rəhmət eləsin, məzarı nurla dolsun.**

ədalət 2019.- 29 avqust .- S.6.